# Lukoyl Şahdəniz Mərhələ 2 –nin uzadılması

| | |
|---|---|
| Ölkə: | Azərbaycan |
| Layihə №: | 49215: |
| Biznes sektoru: | Təbii ehtiyatlar |
| Bildiriş növü: | Özəl |
| Ekoloji kateqoriya: | C |
| Nəzərdə tutulmuş şura tarixi: | 18 iyul 2017-ci il |
| Status: | Son yoxlanışı keçib, Şuranın təsdiqini gözləyir |
| LXS(Layihə üzrə Xülasə Sənədləri) açılış tarixi: | 19 iyun 2017-ci il |

## Layihənin Təsviri

Azərbaycanda dəniz qaz kəşfiyyat və hasilat layihəsi ("Layihə") və dünyanın ən böyük qaz yataqlarından biri olan Şahdəniz yatağında hasilatın ikinci mərhələsində payının əlavə maliyyələşdirilməsini təmin etmək üçün LUKOYL Şahdəniz Ltd ("LOSD") şirkətinə kreditin verilməsi. LUKOYL şirkətinin Şahdəniz yatağında 10% payı vardır. Layihəyə BP plc. şirkəti rəhbərlik edir.

PJSC LUKOYL kreditə tam zəmanət verir.

## Layihənin məqsədləri

Layihəyə iki əlavə körpü ilə birləşdirilmiş dəniz qaz platforması, 26 sualtı quyu, 500km-lik sualtı boru kəmərləri və Səngəçal Terminalında yerləşən qaz qurğusunun genişləndirilməsi daxildir.

## Keçidin təsiri

Təklif edilmiş layihəyə keçidin təsirinin (a) bölgəyə yeni məhsulların nümayişindən (qovşağa qoşulmuş qaz satışı sazişləri) və (b) innovativ sualtı kəşfiyyat və hasilat texnologiyalarından irəli gəlməsi gözlənilir. Əməliyyatın bir hissəsi kimi, Bank sektorda ən yaxşı təcrübələri nümayiş etdirmək üçün əlavə keçid elementlərini nəzərdən keçirir.

## Müştəriyə dair məlumat

LUKOYL OVERSEAS ŞAHDƏNİZ LTD

LUKOYL Overseas Şahdəniz Ltd ("LOSD") dolayı və tam olaraq PJSC LUKOYL şirkətinə məxsus olan məqsədli şirkətdir.

## AYİB-nin Maliyyə xülasəsi

100,000,000.00 ABŞ Dolları

100 milyon ABŞ Dollarına qədər

## Layihənin ümumi dəyəri

400,000,000.00 ABŞ Dolları

3,000 milyon ABŞ Dollarına qədər

## Ətraf Mühit və Sosial sahəyə dair xülasə

Əlavə ƏMSƏT tələb olunmadığı üçün layihəyə C kateqoriyası (2014-cü il ƏMSSL-nə uyğun olaraq) verilmişdir. Bu, 22 iyul 2015-ci ildə şura tərəfindən təsdiq edilmiş mövcud layihənin (DTM 46766) uzadılmasıdır. Mövcud layihə tam Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsini (ƏMSSTQ) tələb edən A kateqoriyalı layihə olsa da, o, ilkin kredit üçün aparılmışdı və Layihənin məğzi dəyişmədiyi üçün ƏMSSTQ baxımından əlavə heç nə tələb olunmur. Kreditlə bağlı bu günə qədər bütün ƏMSƏT monitorinq və hesabat tələbləri yerinə yetirilmişdir. 2016-cı ildə müstəqil məsləhətçinin bu layihə üçün hazırladığı Ətraf Mühit və Sosial Sahənin monitorinqi haqqında hesabatı ictimaiyyət üçün açıqdır. Qeyd etmək lazımdır ki, orijinal layihə Ətraf Mühit və Sosial Sahənin İdarəedilməsi Planlarının ictimaiyyətə açıqlanmasında yaranan çatışmazlıqlarla bağlı AYİB İƏ şöbəsinin tələbləri istisna olmaqla, Şura tərəfindən təsdiq edilmişdir. Bu məlumat açıqlanmış ƏMSSTQ paketinə daxil edilməsə də, BP bizim ilkin icmalımızın bir hissəsi kimi bu məlumatı xahiş etmişdir və biz bu planları nəzərdən keçirdikdən sonra onun hazırlanması, yerli icmalara şifahi şəkildə bildirilməsi və istifadə üçün hazır olduğu təsdiq edilə bilər; bununla belə o, açıqlanmamışdır. Bu layihəyə dair qiymətləndirməmizin bir hissəsi kimi biz tələblərin qismən ləğv edilməsini xahiş etməmək üçün bu planları açıqlamağa çalışacağıq.

Bu layihə ilə bağlı əvvəlki təcrübəmizə əsaslanaraq və orijinal qiymətləndirmənin bir hissəsi kimi təchiz edilmiş məlumat və sənədlərin (bəziləri açıqlanıb, bəziləri açıqlanmayıb) nəzərdən keçirilməsindən və davam edən monitorinqdən sonra, ictimaiyyətə açıqlanmış ƏMSSTQ sənədlər paketinin AYİB İƏ şöbəsinin tələblərinə tam uyğun gəlməsə də, layihənin cavabdeh şəkildə idarə və nəzarət edildiyi qərarına gəldik.

## Texniki əməkdaşlıq

Yoxdur.

## Şirkətin əlaqə məlumatları

Oqtay Mövsümov
mail@lukoil-overseas.com
PJSC LUKOYL Sretenskiy blvd, 11 Moskva, 101000, Rusiya

## Biznes imkanları

Biznes imkanları və ya tədarük üçün müştəri şirkəti ilə əlaqə saxlayın.

Satış sektoru layihələri üçün AYİB Tədarükü səhifəsinə baş çəkin. Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

## Ümumi sorğular

Tədarüklə əlaqədar olmayan AYİB layihə sorğuları:
Tel: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

## İctimai informasiya siyasəti (İİS)

İİS AYİB-nin məlumatı necə açıqladığını və öz strategiyaları, siyasətləri və əməliyyatları haqqında daha yaxşı tədris və anlayışları təbliğ etmək üçün öz tərəfdaşları ilə necə məsləhətləşdiyini təyin edir.

İİS mətni

## Layihə üzrə Şikayət Mexanizmi (LŞM)

AYİB Bank tərəfindən maliyyələşdirilən layihənin zərər verməsi və ya verə biləcəyi haqqında bir və ya bir neçə şəxsdən və ya təşkilatlardan alınmış şikayətlərin müstəqil nəzərdən keçirilməsinə imkan vermək üçün Layihə üzrə Şikayət Mexanizmi (LŞM) təşkil etmişdir.

Layihə üzrə Şikayət Mexanizmi

LŞM altında verilən bütün şikayətlər LŞM prosedur qaydaları səhifəsində qeyd edilmiş zaman çərçivəsində təqdim edilməlidir. Siz şikayətin bu mexanizm daxilində verilə biləcəyindən əmin deyilsinizsə, yardım üçün LŞM üzrə məsul şəxsə (pcm@ebrd.com ünvanı ilə) müraciət edin.